**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

# TARİX – IX SİNİF

*Şənbə, 22 aprel 2017*

**1. Verilmiş tapşırığı qarşısında *hə* və ya *yox* cavablarını işarələməklə (v) yerinə yetirin: (10 bal)**

| N: | Tapşırıqlar | Hə | Yox |
|---|---|---|---|
| 1. | Strabonun yazdığına əsasən, Kanidi iber və alban hökmdarlarına qalib gəlmişdi | | |
| 2. | E.ə. 390-cı ildə keltlər Roma üzərinə hücuma keçmişdilər | | |
| 3. | Venesiya XIV əsrdə öz yeganə rəqibi olan Bizansı Şərqlə ticarətdə vasitəçilikdən sıxışdırıb çıxardı | | |
| 4. | Uzun Həsənin "Qanunnamə"si kəndlilərin vəziyyətini yaxşılaşdırmışdı | | |
| 5. | Şəki xanı Məhəmmədhəsən xanın dövründə vergi, feodal münasibətləri, sosial təbəqələrin hüquq və vəzifələrini nizama salan qanunnamə hazırlanmışdı | | |
| 6. | 1878-ci il Şəhər Əsasnaməsinə görə, Şəhər İdarəsinin başçısını qubernator təyin etsə də, Daxili İşlər Nazirliyi təsdiq etməli idi | | |
| 7. | XIX əsrin sonlarında Kənd cəmiyyətləri ibtidai kənd məktəblərinin saxlanılması xərclərini ödəyirdi | | |
| 8. | 1843-cü il Ərzurum sülhünə görə, Süleymaniyyə şəhəri Osmanlılara verildi, Xürrəmabad isə Qacarlara qaytarıldı | | |
| 9. | İngiltərədə XIX əsrdə həyata keçirilən II parlament islahatı və Azərbaycanda həyata keçirilən 1878-ci il Şəhər islahatına əsasən, seçkilərdə iştirak etmək üçün əmlak senzi müəyyən edilmişdi | | |
| 10. | XX əsrin əvvəllərində Fransa sənayenin ümumi inkişafına görə Avropada ikinci yerdə idi | | |

**2. Mətni tamamlayın: (10 bal)**

Astronomiyanın inkişafında xüsusi rol oynamış İsfahan, Marağa, Səmərqənd rəsədxanaları tikilmişdi. Dövrün görkəmli alim və şairi _____________ İsfahan rəsədxanasının başçısı olmuşdu. Onun tərtib etdiyi _______________ miladi təqvimindən daha dəqiq hesablamalara əsaslanırdı. Digər görkəmli türk astronomu _____________ ulduz bürclərinin dövrü adını (siçan, öküz, bəbir, dovşan, timsah, ilan, at, qoyun, meymun, toyuq, it, donuz) _________ dillərində vermişdir. Teymuri hökmdarı və görkəmli astronom ____________ Günəş, Ay və ulduzların hərəkətlərini göstərən cədvəl düzəldib Ay və Günəşin __________ müəyyən etmişdi. Tibb elminin inkişafına xüsusi diqqət yetirilirdi. Osmanlı dövlətinin _____________ və Azərbaycanın Təbriz şəhərlərində ___________ adlı xəstəxanaları açılmışdı. Görkəmli Azərbaycan alimi _____________________

tibbə aid əsərləri Şərqdə böyük şöhrət qazanmışdı. Məşhur türk admiralı __________ tərtib etdiyi dəniz atlasına Amerika qitəsini daxil etmişdi. Bu onu göstərirdi ki, avropalıardan daha əvvəl türk coğrafiyaçıları, səyyahları Amerika qitəsi haqqında məlumatlara malik idilər.

**3. Xəritə-sxemdə <u>İ.V. Höte</u>, <u>Ç. Dikkens</u>, <u>O. Balzak</u>, <u>F. Şopen</u> və <u>H. İbsen</u> kimi mütəfəkkirlərin formalaşdığı dövlətlərin ərazilərini rəngləməklə qeyd edin və həmin dövlətlərin adını yazın: (10 bal)**



**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

**4. XVIII əsrdə Səfəvilərin digər dövlətlərlə imzaladığı müqavilələrə dair cədvəl tərtib edin və məlumatları daxil edin: (10 bal)**

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

**5. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəetməsinə dair sxem çəkərək məlumatları daxil edin və onu təhlil edin: (10 bal)**

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

**6. XVII əsrin sonlarında Səfəvilər dövlətində yaranmış pul böhranını aradan qaldırmaq üçün əsaslandırılmış layihə hazırlayın (maksimal 1 səhifə həcmində): (10 bal)**